Məlumat üçün qeyd edək ki, Təhsil Nazirliyi ABA-CEELİ təşkilatı ilə birgə 2004-cü ildən "Canlı hüquq" proqramını həyata keçirir. Bu proqram çərçivəsində 2004-2009-cu illərdə 250 çox tələbəyə 2500-dən çox şagirdə hüquq dərsləri keçirilib.

Təntənəli yubiley mərasimində layihəni həyata keçirən proqram rəhbəri və tələbələr 5 illik fəaliyyət barədə maraqlı təqdimat ediblər. Proqramda iştirakçısı olan tələbələr, proqramı həyata keçirən məktəb rəhbərləri mərasimdə iştirak ediblər. Həmçinin, ABA-CEELİ təşkilatının ölkə üzrə direktoru, şöbə müdiri, "Hüquqi təhsil" proqramının hüquqşünası, proqramın koordinatoru, Təhsil Nazirliyinin və bir sıra səfirliklərin nümayəndələri də yubiley tədbirinə qatılıblar.

Mərasimin sonunda proqramda uğur qazanan məkəblərə, tələbələrə və digər iştirakçılara sertifikatlar təqdim olunub.